(Əvvəli 5-ci səhifədə).

# Qəbələ tanınmış turizm mərkəzidir

Rayon ərazisindəki göllərin böyük əksəriyyəti Dəmiraparan çayının hövzəsində yerləşir. Dəmiraparan çayının və onun qollarının qida mənbəyi rolunu oynayan göllər Tufangöl, İsmayıl Bəy Qutqaşınlı göl, Külək göl, Qotur göl və Nohur göllüdür.

Güllüburun, Göydağ və Yumuru dağlarının arasında yerləşən Nohur gölü yerli və xarici turistlərin ən çox maraq göstərdikləri istirahət zonalarından biridir. Nohur gölünün balıqçılığın və idmanın inkişaf etdirilməsində əhəmiyyəti böyükdür. Hazırda gölün sahilində beşulduzlu "Chenot Palace Healt Welness Hotel" oteli və digər sağlamlıq və istirahət zonaları fəaliyyət göstərir.

Bundan başqa rayon ərazisi yeraltı su mənbələri, şəlalələr və mineral bulaqlarla zəngindir. Rayondakı Qəmərvan, Şonqar və Yengicə bulaqlarının suları minerallıq baxımından yüksək və bir çox xəstəliklərin təbii müalicəsi üçün əhəmiyyətlidir. Həmçinin rayonun Muçux və 7 gözəl şəlalələri buraya gələn yerli və xarici turistləri ecazkar gözəlliyi ilə heyrətləndirir.



Rayon tarixi abidələrlə də çox zəngindir.

Qafqaz Albaniyasının 900 illik bir dövrdə paytaxtı olmuş qədim Qəbələ şəhərinin günümüzə gəlib çatmış möhtəşəm qala divarları bu səhnənin əzəməti barədə təsəvvür yaradır.

Qədim Qəbələnin maddi-mədəniyyət nümunələri ilə yanaşı, müasir Qəbələ şəhəri də turistlərin böyük marağına səbəb olur. Qəbələ geniş, rahat asfalt yolları və küçələri, möhtəşəm binaları, beynəlxalq hava limanı, dünya səviyyəli konqres salonu, beşulduzlu otelləri, yaraşıqlı parkları, idman meydançaları, istirahət mərkəzləri olan modern şəhərdir. Arxitekturası gündən-günə dəyişən və gözəlləşən müasir Qəbələ Azərbaycanın əsas turizm məkanlarından biri sayılır.

Qəbələnin son illər bır sıra beynəlxalq tədbirlərə, forumlara, sammitlərə, o cümlədən beynəlxalq idman yarışlarına, musiqi və mürəbbə festivallarına, incəsənət sərgilərinə ev sahibliyi etməsi də bu rayona işgüzar səfərə və istirahətə gələnlərin sayını dəfələrlə artırmışdır. Şəhərin Heydər Əliyev adına Konqres Mərkəzində, hətta dövlət başçıları səviyyəsində zirvə görüşlərinin keçirilməsi üçün yaradılmış şərait dünya standartlarının bütün tələblərinə tam cavab verir. Təsadüfi deyildir ki, 2013-cü ilin avqustunda Qəbələ Konqres Mərkəzində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının III Zirvə toplantısı keçirilib.

Qəbələ rayonunda yay turizmi ilə yanaşı qış turizmi də inkişaf etməkdədir. "Tufandağ" Qış-Yay Turizm İstirahət Kompleksində qış istirahət məkanının yaradılması, yəni dağ-xizək idman növləri üçün kompleksin inşa edilməsi, bütün fəsillərdə ekskursiya və digər aktiv istirahət imkanlarının mövcudluğu ilə yanaşı, həmin ərazidə yerləşən otel yaxınlığında həm də qış idman növləri ilə məşğul olmağa şərait yaradılmışdır

Qəbələ rayonunda yaradılmış idman infrastrukturu və maddi-texniki baza imkan verir ki, burda bir çox respublika və dünya səviyyəli yarışlar, turnirlər keçirilsin

Son illər ərzində rayonda Olimpiya Atıcılıq növləri üzrə Beynəlxaq Qran-Pri yarışları, Olimpiya atıcılıq növləri üzrə Dünya Kuboku yarışlarının final mərhələsi, "Gabala Fight Series" kikboks üzrə Beynəlxalq turnir, "Offroad" avtomobil yarışı üzrə Beynəlxalq turnir və s. keçirilmişdir.

Qəbələ artıq turizm sektorunda ölkənin aparıcı rayonlarından birinə çevrilmişdir. Qəbələyə gələn yerli və xarici turistlərin sayı günü-gündən artmaqdadır ki, bu da rayonun iqtisadi dayanıqlılığına müsbət təsir göstərir.

✍ **Azər ŞİRİNOV,**
**RİH-nin əməkdaşı.**

# Meşələr əvəzolunmaz xəzinədir

***Böyük Əmili kəndindən oxucumuz Əlikram Tapdıqov meşələrin və ağacların təbiətdəki əvəzolunmaz yeri və xüsusiyyətləri barədə topladığı materialları redaksiyamıza təqdim etmişdir. Oxucular üçün maraqlı olacağını nəzərə alaraq həmin yazını ixtisarla qəzetimizdə dərc edirik.***



Azərbaycan gözəlliklər diyarıdır, onun meşələri də, düzləri də, dağları, daşları da gözəldir. Bu gözəlliklər aləmində meşələr xüsusilə fərqlənir. Meşələrin insanlar və bütün canlılar üçün əhəmiyyətini yazmaqla başa çatdırmaq mümkün deyil. Meşənin öz sehrli səsi, məlahətli nəğməsi var və bu şəhərin səs-küyündən yorulmuş insana rahatlıq gətirir.

Meşələr ümumilikdə havaya antibiotik xassəli fitonsidlər buraxır. Bununla belə hər bir ağacın öz xüsusiyyəti var. Şamın fitonsidləri vərəm xəstəliyinin sağalmasına kömək edir. Ağ şam difteriya mikroblarını qırır. Qovaq və palıdın fitonsidləri qanlı ishal çöplərini məhv edir. Ardıc difteriya, göyöskürək, qarın yatalağı çöplərinə, milçəklərə qarşı təsirlidir.

Bir hektar ardıc meşəsinin bir sutkada istehsal etdiyi 30 kiloqram fitonsidli efir yağı bir şəhəri mikroblardan təmizləyir.

Palıd və qaraçöhrənin fitonsidləri 6 dəqiqə ərzində bakteriyaları məhv edir. Ardıc, itburnu, yemişan meyvələri, ziyilli tozağacı yarpağı, cırtdan palma meyvəsinin ekstratı ilə birlikdə dəmlənərək prostatidin müalicə və profilaktikasında, eləcə də keçəlləşmənin qarşısının alınmasında istifadə olunduqda yaxşı nəticələr verir.

Meşələr havanın çirklənməsinin qarşısının alınmasında ən yaxşı vasitədir. Bir hektar küknar meşəsi 32 ton, şam meşəsi 36 ton, palıd meşəsi 54 ton, fıstıq meşəsi 68 ton tozu özündə saxlaya bilir.

Yazıdan göründüyü kimi meşələr, hər bir ağac insanların, bütün canlı varlıqların sağlamlığında, təbiətdə ahəngdarlığın saxlanmasında əvəzsiz rol oynayır. Onları qorumaq hamının borcudur.

✍ **Əlikram TAPDIQOV.**

# Maraqlı bayram tədbiri



Zarağan kənd uşaq bağçasında azyaşlıların əqli inkişafının zənginləşdirilməsi, onların gələcək həyata baxışlarının formalaşdırılması mövzusunda rəngarəng tədbirlər həyata keçirilir. Bu tədbirlər sırasında körpələrdə vətən, vətənə bağlılıq, ana yurda sevgi, onun əsgər oğullarına ehtiram hissi əsas yer tutur.

Bu yaxınlarda Silahlı Qüvvələr Günü münasibətilə təşkil olunmuş musiqili-əyləncəli proqram əlvanlığı ilə yadda qalmışdır. Milli geyimli oğlan və qızlar əsgəri düzümdə Azərbaycan Respublikasının Dövlət Himnini ifa etmişlər. Uşaq bağçasının müdiri Dunay Səddinovaya bayram münasibətilə pedaqoji heyəti və gələcəyin əsgər balalarını təbrik etmiş, bu bayram gününü tarixə yazmış , ulu öndər Heydər Əliyevin, uşaqların böyük dostu cənab İlham Əliyevin onlara və gələcək əsgərlərə olan sevgisindən danışmışdır.

Mahnı sədaları altında milli əsgər geyimli körpə balalar bölüklər şəklində əsgəri addımlarla dövrə vurmuş, qalibiyyət nəğməsi oxumuşlar. Əllərində kiçik bayraqlar tutan uşaqlar Şəmistan Əlizamanlının məşhur "İgid əsgər" mahnısını xorla ifa etmişlər.

Tədbirdə xalq şairi Süleyman Rüstəmin "Duz çörək" şeirinin motivləri əsasında azyaşlıların iştirakı ilə maraqlı səhnəcik təqdim olunmuşdur. Balaca Həsən və Aysunun ifasında ağsaçlı ata və ana obrazı canlandırılmışdır. Əsgər yola salınan azyaşlı Ayxana sanki yol üstündə öyüdlər şəklində ata xeyir-duası verilir. Ağsaqqal geyimli "ata"nın- Həsənin son nəsihəti tamaşa edənlərdə xüsusi emosiya doğurur.

Bundan sonra uşaqlar üç dildə şeir parçaları səsləndirmişlər. Vətənin bölünməzliyini, müqəddəsliyini bədii parçalarla canlı təqdim edən Elzanın azərbaycanca, Nurayın rusca və Aişənin isə ingiliscə söylədikləri misralar alqışlarla qarşılanmışdır.

Tədbirin ən maraqlı hissəsi onun final mərhələsi olmuşdur. Ümummilli lider Heydər Əliyevin bir zaman dərin sevgi və kövrək səslə söylədiyi Səməd Vurğunun məşhur "Azərbaycan" şeirinin ilk bəndi ulu öndərin ifasında səsləndirilmiş, bu kövrək səhnənin nümayişi zamanı qələbə rəmzi olaraq bayram şamları alovlandırılmış, zəfər gününün arzuları ilə körpələrə "Silahlı Qüvvələr günü" adlı bayram tortu hədiyyə olunmuşdur.

Bayram şənliyini bağçanın müdiri Dunay Səddinova yekunlaşdıraraq, belə əyləncəli proqramların körpələrin həyatında silinməz iz buraxdığını bildirmiş, bu qəbildən olan tədbirlərin gələcəkdə də silsilə şəklində davam etdiriləcəyini demişdir.

✍ **Günel HACIYEVA,**
**Zarağan kənd 1 nömrəli tam orta məktəbin müəllimi.**

*Torpağa düşməsin havayı bir dən*

# Biçin sürətlənir



Uzun sürən yağışlı havadan sonra havanın sabitləşməsi, isti hava taxıl biçini üçün yaxşı şərait yaratmışdır. Rayonumuzun fermerləri, torpaq sahibləri sahələrdə bol məhsul yetişdiriblər. İndi əsas məsələ əlverişli havadan istifadə edib taxılı itkisiz toplamaqdan ibarətdir. Hazırda sahələrdə 45 kombayn işləyir. Bu günə qədər 4.940 hektarda buğda, 4.450 hektarda isə arpa biçilmişdir. Biçilmiş 9.390 hektar taxıl zəmilərindən 15.808 ton arpa, 14.685 ton buğda istehsal olunmuşdur. Məhsuldarlıq orta hesabla 32-33 sentnerdir. Rayonun 20 kəndində biçin artıq başa çatmışdır.

Kəndlilər məhsuldarlıqdan razıdırlar.

✍ **Ramil QƏRİBOV,**
**RİH-nin şöbə müdirinin müavini.**